# Qarabağı qarış-qarış...

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Xocalı rayonlarına səfər ediblər

### Xocavəndin Şıx Dursun kəndində "Çinar müqəddəs yer" abidə kompleksinə baxış







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 20-də Xocavənd rayonunun Şıx Dursun kəndində olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım kənddəki "Çinar müqəddəs yer" abidə kompleksinə baxış keçiriblər. Qeyd edək ki, Qırmızı Bazar qəsəbə inzibati ərazisi dairəsinə daxil olan Şıx Dursun kəndi 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Kənddə 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir.

